| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 01.07.2010 |
| QEYDİYYAT NÖMRƏSİ | 129 |
| ADI | “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-07-2010, Nəşr nömrəsi: 07, Maddə nömrəsi: 695) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 01.07.2010 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 190.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 1 iyul 2010-cu il
129

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 1 iyul tarixli, 129 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Doktoranturaların yaradılması və doktoranturaya qəbul

## Q A Y D A L A R I

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununa əsasən hazırlanmışdır və *“Təhsil haqqında” və ”Elm haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq* doktoranturaların yaradılmasına qoyulan tələbləri və doktoranturaya vahid qəbul qaydalarını müəyyən edir.[1]

1.2. Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi ~~və elmi-pedaqoji~~ kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura *yolu ilə və ya hərbi təhsil müəssisələrinə münasibətdə adyunkturada* həyata keçirilir və müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır.[2]

1.3. Doktoranturada təhsil fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə həyata keçirilir.

1.4. Doktoranturada təhsilalma əyani (istehsalatdan ayrılmaqla) və qiyabi (istehsalatdan ayrılmamaqla) formalar üzrə həyata keçirilir.

1.5. Doktorantura təhsilini həyata keçirən ali təhsil müəssisələri*, elmi müəssisə və təşkilatlar elmi* kadr hazırlığını dissertantlıq (dissertantura) yolu ilə də reallaşdırır.[3]

1.6. Doktoranturada təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, bələdiyyə və özəl ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. *Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.*[4]

1.7. Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Müstəsna hallarda bütün təhsil formaları üzrə təhsil müddəti uzadıla bilər.

1.8. Doktoranturaya illik qəbul və dissertantların təhkimolunma planları ali təhsil müəssisələrinin*, elmi müəssisə və təşkilatların* sifarişləri əsasında onların tabe olduqları müvafiq qurumlar tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunur, Azərbaycan Milli Elmlər Akademiyasının *(bundan sonra – AMEA)* və Azərbaycan Respublikası *Elm və Təhsil* Nazirliyinin *(bundan sonra – Nazirlik)* rəyləri əsasında *hər il aprelin 1-dək* təsdiq edilir.[5]

1.9. Doktoranturada və dissertantlıq yolu ilə təhsilini *müvəffəqiyyətlə bitirən və elmi dərəcəyə layiq görülən müvafiq elm sahəsi üzrə fəlsəfə doktorlarına və elmlər doktorlarına vahid formalı dövlət sənədi – diplom* verilir.[6]

1.10. Ali təhsil müəssisələrinin*, elmi müəssisə və* təşkilatların nəzdindəki doktoranturalara elmi-metodik rəhbərliyi və fəaliyyətlərinə nəzarəti onların tabe olduqları müvafiq qurumlar həyata keçirir.[7]

### 2. DOKTORANTURALARIN YARADILMASI

2.1. Doktoranturalar *AMEA-da*, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, ali təhsil müəssisələrində , *elmi müəssisə və* təşkilatlarda yaradılır.[8]

2.2. Doktoranturaların yaradılması haqqında vəsatət ali təhsil müəssisələrinin*, elmi müəssisə və təşkilatların* sifarişləri əsasında onların tabe olduqları müvafiq qurumlar tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunur, *AMEA-nın və Nazirliyin* rəyləri əsasında təsdiq edilir.[9]

2.3. Vəsatətə ali təhsil müəssisələrinin, elmi *müəssisə və təşkilatların* ~~təşkilatlarının~~ elmi və elmi-texniki şuralarının (bundan sonra — elmi şura) qərarları əlavə olunur. Qərarda doktorantura təhsili üçün nəzərdə tutulan ixtisasların siyahısı və müvafiq elmi potensialın mövcudluğu göstərilir.[10]

2.4. Ali təhsil müəssisələrində *elmi müəssisə və təşkilatlarda doktoranturanın yaradılması üçün onların yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr potensialına, zəruri maddi-texniki bazaya və müvafiq infrastruktura malik olması* müəyyənləşdirilməlidir.[11]

2.5. *Ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda doktoranturanın yaradılması* üçün aşağıdakı məlumatlar təqdim edilir:[12]

təşkilati-hüquqi statusu və əsas elmi istiqamətlərini əks etdirən ümumi məlumat;

elmi və elmi-pedaqoji kadr potensialı haqqında məlumat;

fundamental tədqiqatların səviyyəsi və prioritet istiqamətləri üzrə əldə olunmuş son nailiyyətlər haqqında məlumat;

dövlət proqramlarının həyata keçirilməsində iştirak haqqında məlumat;

maddi-texniki baza (humanitar profilli sahələr üçün kitabxanalar, xüsusi fondlar, arxivlər və s.) haqqında məlumat;

dərc olunmuş elmi işlər, alınmış patentlər, elmi və texnoloji işləmələr, təşkil olunmuş beynəlxalq və milli tədbirlər, həyata keçirilmiş proqram və layihələr, innovasiya sahəsində fəaliyyətin nəticələri haqqında məlumat;

təhsilin bütün pillələri üçün nəşr olunmuş dərs vəsaitləri, digər təşkilatlarla birgə həyata keçirilən proqram və layihələr haqqında məlumat;

beynəlxalq və ikitərəfli proqramlar çərçivəsində xarici elmi qurumların fəaliyyətində iştirakı əks etdirən əməkdaşlıq haqqında məlumat.

Xüsusi təyinatlı təhsil müəssisələrində doktoranturaların yaradılması üçün həmin müəssisələrin fəaliyyətini əks etdirən digər məlumatlar da təqdim edilə bilər.

## 3. FƏLSƏFƏ DOKTORU HAZIRLIĞI ÜZRƏ DOKTORANTURA

*3.1. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.*[13]

3.2. Doktoranturanın (keçmiş aspiranturanın) tam kursunu bitirən şəxs eyni ixtisas üzrə təkrarən doktoranturaya qəbul oluna bilməz.

3.3. Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);

kadrların şəxsi-qeydiyyat vərəqi;

tərcümeyi-hal;

2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);

iş yerindən xasiyyətnamə;

iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;

çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;

ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);

şəxsiyyəti təsdiq edən sənədin surəti.

3.4. Sənədlərin qəbulu forması, qaydaları, *tələbə qəbulu* və imtahanların keçirilmə müddəti haqqında kütləvi informasiya vasitələrində qəbulu həyata keçirən müəssisə tərəfindən müvafiq elan verilir.[14]

3.5. Doktoranturaya qəbul *hər ilin iyun (xarici dil imtahanı) və sentyabr (fəlsəfə və ixtisas fənnindən imtahanlar) ayları ərzində* keçirilir.[15]

3.6. Sənədlərin qəbulu üçün doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin , *elmi müəssisə və təşkilatın* rəhbərinin (və ya elmi işlər üzrə müavininin) sədrliyi ilə qəbul komissiyası yaradılır. Qəbul komissiyası fakültə, kafedra, şöbə, bölmə, laboratoriya rəhbərlərindən, aparıcı əməkdaşlardan və ~~bir qayda olaraq,~~ doktorantların nəzərdə tutulan *elmi* rəhbərlərindən təşkil olunmalıdır.[16]

3.7. Doktoranturaya qəbul olmaq istəyən şəxslərin ixtisas uyğunluğu qəbul komissiyası tərəfindən müəyyən edilir.

3.8. Doktoranturaya qəbul olmaq istəyən şəxslə nəzərdə tutulan elmi rəhbər müsahibə keçirir və rəhbərliyi həyata keçirmək barədə razılıq və ya imtina qərarını yazılı surətdə qəbul komissiyasına təqdim edir. İmtina olunduğu halda digər elmi rəhbər təklif edilir.

3.9. Qəbul komissiyası nəzərdə tutulan *elmi* rəhbərin rəyi və təqdim edilən digər sənədlər əsasında imtahanlara buraxılmaq haqqında qərar qəbul edir və bu barədə bir həftədən gec olmayaraq iddiaçıya bildiriş göndərir. Bildiriş doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsi, *elmi müəssisə və təşkilat* rəhbərləri tərəfindən imzalanır və bu bildiriş iş yerindən məzuniyyət almaq hüququ verir. [17]

*3.10. Doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.*[18]

*3.10-1. Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – DİM) tərəfindən keçirilir. Xarici dil üzrə imtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı AMEA və Nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.*[19]

*Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar.*

*Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, Cambridge English Qualifications, TestDaF, DELF, DALF, STANAG) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.* [20]

*3.10-2. Fəlsəfə fənni üzrə imtahan doktoranturaya qəbulu həyata keçirən ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatların tabe olduqları müvafiq qurumlar tərəfindən müəyyən olunmuş ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatlarda həyata keçirilir. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir. İmtahanın məzmunu (proqramı) AMEA və Nazirlik tərəfindən birgə müəyyənləşdirilir.*

3.11. *İxtisas fənnindən qəbul imtahanı* keçirmək məqsədi ilə ali təhsil müəssisələrində *, elmi müəssisə və təşkilatlarda* müvafiq fənlər üzrə imtahan komissiyaları yaradılır.[21]

*3.12. İxtisas fənnindən qəbul imtahanını doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbəri tərəfindən yaradılan komissiya həyata keçirir və imtahana yalnız fəlsəfə fənnindən "məqbul" alan şəxslər buraxılırlar. Komissiyanın tərkibində müvafiq ixtisas üzrə ən azı iki elmlər doktoru və ya professor olmalıdır. Nəzərdə tutulan elmi rəhbərlər də komissiyanın üzvü ola bilərlər. Komissiyanın sədri ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbəri, yaxud elmi işlər üzrə müavini təyin edilir. Bəzi ixtisaslar üzrə elmlər doktorları və professorlar olmadıqda, müvafiq olaraq komissiyanın tərkibinə fəlsəfə doktorları (elmlər namizədləri) və dosentlər daxil edilir.*[22]

3.13. Bərabər ballar toplandığı halda, müsabiqədə ixtisas fənnindən daha yüksək qiymət alan və çap edilmiş elmi əsərləri olan şəxslərə üstünlük verilir.

*3.14. Ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda yaradılmış qəbul komissiyaları imtahanların nəticələri əsasında müvafiq qərar qəbul edirlər. Qərar barədə məlumat şəxsin ərizəsində göstərdiyi ünvana və ya elektron poçt ünvanına göndərilir. Komissiyanın qərarından razı olmayan şəxslər qərar qəbul edildikdən və bu barədə məlumat aldıqdan sonra 3 (üç) iş günü müddətində ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbərinə apellyasiya ərizəsi ilə müraciət edə bilər. Müəssisə rəhbəri 5 (beş) iş günü müddətində müraciətə baxmalı və əsaslandırılmış qərar qəbul etməlidir. Qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət edilə bilər.*[23]

*3.15. Dissertasiyaların mövzularının təsdiq edilməsi və elmi rəhbərlərin təyin edilməsi doktoranturaya qəbul olunma haqqında qərar qəbul olunan gündən 6 aydan gec olmamaq şərtilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.*[24]

3.16. Doktoranturaya qəbul *tələbə qəbulu* əsasında ali təhsil müəssisələrinin*, elmi müəssisə və təşkilatların* fəaliyyətini tənzimləyən nizamnaməyə (əsasnaməyə) uyğun olaraq rəsmiləşdirilir.[25]

3.17. Doktoranturaya qəbul haqqında qərarın (əmrin) surəti doktoranturaya istehsalatdan ayrılmaqla qəbul olunmuş şəxs ilə işəgötürən arasında olan əmək müqaviləsinə xitam vermək üçün əsasdır.

3.18. Doktoranturaya istehsalatdan ayrılmaqla qəbul olunan şəxslərin əmək kitabçası doktoranturaya qəbul olunduğu *ali təhsil müəssisəsinə, elmi müəssisə və təşkilata* təqdim edilir.[26]

~~3.19. Doktoranturaya qəbul haqqında qərarda (əmrdə) doktorantın dissertasiyasının mövzusu, təhsil müddəti və rəhbəri (rəhbərləri) göstərilir və onlara bu haqda məlumat verilir. Bir qayda olaraq, doktorantın elmi rəhbəri elmlər doktoru və ya professor olur.~~[27]

~~3.20. Müstəsna hallarda, ali təhsil müəssisələrinin, *elmi müəssisə və təşkilatların* elmi şuralarının qərarı əsasında müvafiq ixtisasa malik fəlsəfə doktorları (elmlər namizədləri) da doktorantlara elmi rəhbərlik işinə cəlb oluna bilərlər.~~

~~3.21. Müxtəlif ixtisasları əhatə edən mövzular üzrə elmi tədqiqatlar apararkən doktoranta iki elmi rəhbər, yaxud rəhbər və məsləhətçi təyin oluna bilər. Onlardan biri fəlsəfə doktoru (elmlər namizədi) ola bilər.~~

3.22. Elmi rəhbər doktoranta elmi iş üzrə məsləhətlər verir, doktorantın təsdiq edilmiş fərdi iş planına (tədris proqramına) uyğun fəaliyyətinə rəhbərlik edir və dissertasiya işinin müəyyən olunmuş vaxtda keyfiyyətlə yerinə yetirilməsinə nəzarət edir. *Elmi rəhbər müdafiə olunmuş dissertasiya işinin məzmununun və elmi yeniliyinin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 3-cü hissəsinin tələblərinə uyğunluğunun müəyyən edilməsinə görə cavabdehdir.* [28]

3.23. Bir elmi rəhbərə təhkim olunan doktorantların sayı 5 nəfərdən artıq olmamaq şərtilə, ali təhsil müəssisəsi *, elmi müəssisə və təşkilatların* elmi şuraları tərəfindən müəyyən olunur və ali təhsil müəssisələrinin*, elmi müəssisə və təşkilatların* fəaliyyətini tənzimləyən nizamnaməyə (əsasnaməyə) uyğun olaraq rəsmiləşdirilir.

3.24. Hər bir doktoranta görə elmi rəhbərə qanunvericiliklə müəyyən edilmiş qaydada əməkhaqqı ödənilir.

3.25. Doktoranturada təhsil müddətində doktorant ali təhsil müəssisəsinin *, elmi müəssisə və təşkilatın* elmi şurası tərəfindən təsdiq edilmiş fərdi iş planı əsasında fəaliyyət göstərir.

3.26. Doktorantların ~~bir ali təhsil müəssisəsindən, *elmi müəssisə və təşkilatdan digər ali təhsil müəssisəsinə, elmi müəssisə və təşkilata*, həmçinin~~ əyani təhsildən qiyabiyə və əksinə keçirilməsi ali təhsil müəssisəsi*, elmi müəssisə və təşkilatın* elmi şuralarının qərarı ilə həmin müəssisə və təşkilatların fəaliyyətini tənzimləyən nizamnaməyə (əsasnaməyə) uyğun olaraq həyata keçirilir.[29]

3.27. Doktorant təhsil müddətində:

peşə biliklərinə dərindən yiyələnməli;

müstəqil elmi tədqiqat işi aparmaq vərdişləri əldə etməli;

elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəməli;

fərdi iş planını tam yerinə yetirməli;

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tatixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq imtahanlar verməli;*[30]

elmi tədqiqatlarının nəticələrini əks etdirən məqalələr dərc etdirməli;

elmi tədqiqatlarının nəticələrini aprobasiya etdirməli;

elmi tədqiqat işini bitirməlidir.

3.28. Doktorant fərdi iş planının yerinə yetirilməsi barədə vaxtaşırı şöbə, bölmə, kafedra, laboratoriya iclaslarında

hesabat verir.

3.29. Doktorantlar dissertasiya mövzusu üzrə tədqiqat işi aparmaq üçün ali təhsil müəssisələrinin , *elmi müəssisə və təşkilatların* elmi işçiləri ilə bərabər kitabxanadan, laboratoriyadan, mövcud avadanlıqlardan istifadə etmək, ezamiyyətlərə, o cümlədən, xarici ölkələrə getmək, ekspedisiyalarda iştirak etmək hüququna malikdirlər.

3.30. Doktorantlar ildə bir dəfədən az olmamaq şərtilə, ali təhsil müəssisələri , *elmi müəssisə və təşkilatlar* tərəfindən təsdiq olunmuş attestasiya haqqında əsasnamələrə uyğun olaraq, attestasiyadan keçməlidirlər. Attestasiyanın keçirilmə müddəti ali təhsil müəssisəsi, *elmi müəssisə və təşkilatların* rəhbərləri tərəfindən müəyyən edilir. Doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir.

3.31. Ali təhsil müəssisələrinin, *elmi müəssisə və təşkilatların* elmi şuralarında doktorantların elmi rəhbərlərinin vaxtaşırı hesabatları dinlənilir.

3.32. Doktoranturada fərdi iş planını yerinə yetirən və elmi tədqiqat işini bitirən şəxslər "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsinə buraxılırlar. *Fəlsəfə doktoru imtahanlarının verilməsi iddiaçının dissertasiya müdafiəsinə buraxılması üçün mütləq şərtdir.*[31]

3.33. Ali təhsil müəssisələrinin, *elmi müəssisə və təşkilatların* rəhbərləri doktorantlara fərdi iş planının yerinə yetirilməsində, zəruri avadanlığın, həmçinin elmi tədqiqat işinin mövzusu ilə bağlı materialların əldə edilməsində yardım göstərməlidirlər.

3.34. Dövlət hesabına əyani təhsil alan doktorantlara qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd ödənilir və hər il məzuniyyət verilir. Fərdi iş planını müvəffəqiyyətlə yerinə yetirən doktorantlara müxtəlif adlı təqaüdlər və ya ali təhsil müəssisələrinin, *elmi müəssisə və təşkilatların* daxili imkanları hesabına əlavə ödənişlər təyin oluna bilər.

3.35. Əyani təhsil alan doktorantlar elmi rəhbərin razılığı ilə təhsil aldıqları ali təhsil müəssisəsi , *elmi müəssisə və təşkilatda* 0,5 ştat vahidi ilə müvafiq elmi və ya elmi-pedaqoji işlərə cəlb oluna bilərlər.

## 4. ELMLƏR DOKTORU HAZIRLIĞI ÜZRƏ DOKTORANTURA

4.1. Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi ~~(alimlik)~~ dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.[32]

4.2. Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);

kadrların şəxsi-qeydiyyat vərəqi;

tərcümeyi-hal;

2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);

iş yerindən xasiyyətnamə;

əmək kitabçasından çıxarış;

çap olunmuş elmi işlərin siyahısı;

"Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi ~~(alimlik)~~ dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;

ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərinin tanınması haqqında şəhadətnamə);

şəxsiyyəti təsdiq edən sənədin surəti.

4.3. Ali təhsil müəssisəsinin, *elmi müəssisə və təşkilatın* elmi şurası "Elmlər doktoru" elmi dərəcəsinə iddiaçı haqqında müvafiq şöbə, bölmə, kafedra və ya laboratoriyanın təqdimatı əsasında doktoranturaya qəbul, ~~dissertasiyanın mövzusu~~, fərdi iş planı ~~və elmi məsləhətçisi (məsləhətçilər)~~ haqqında qərar qəbul edir. Həmin qərar ali təhsil müəssisələrinin, *elmi müəssisə və təşkilatların* fəaliyyətini tənzimləyən nizamnaməyə (əsasnaməyə) uyğun olaraq rəsmiləşdirilir.[33]

*4.3-1. Dissertasiyaların mövzularının təsdiq edilməsi və elmi məsləhətçilərin təyin edilməsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.*[34]

4.4. Elmi məsləhətçiyə qanunvericiliklə müəyyən edilmiş qaydada əməkhaqqı ödənilir.

4.5. Zəruri hallarda doktorantlar aparıcı elmi mərkəzlərə (o cümlədən, xaricdə yerləşən) ezam oluna bilərlər. Ezamiyyət xərcləri qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilir.

4.6. Doktorantlar hər il ali təhsil müəssisəsi, *elmi müəssisə və təşkilatın* elmi şurasına fərdi iş planının yerinə yetirilməsi haqqında hesabat verir və həmin hesabat əsasında onun doktoranturada təhsilini davam etdirməsi barədə qərar qəbul olunur.[35]

4.7. Doktorant təhsil müddəti ərzində dissertasiya işini başa çatdırmalı, aprobasiyasını keçirməli və müəyyən olunmuş qaydada onu müdafiəyə təqdim etməlidir.

4.8. Dövlət hesabına əyani təhsil alan doktorantlara qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd ödənilir və hər il məzuniyyət verilir.

## 5. DOKTORANTURADA ELMİ ~~VƏ ELMİ-PEDAQOJİ~~ KADRLARIN MƏQSƏDLİ HAZIRLIĞI[36]

5.1. Doktoranturada yüksəkixtisaslı elmi ~~və elmi-pedaqoji~~ kadrların məqsədli hazırlığı ali təhsil müəssisələri, *elmi müəssisə və təşkilatların və* digər təşkilatların təqdimatı ilə onların tabe olduqları müvafiq qurumların sifarişləri əsasında həyata keçirilir.[37]

5.2. Doktoranturada yüksəkixtisaslı elmi ~~və elmi-pedaqoji~~ kadrların məqsədli hazırlığı ali təhsil müəssisələrinin, *elmi*

*müəssisə və təşkilatların* doktoranturaya ümumi qəbul qaydalarına müvafiq həyata keçirilir. Məqsədli yerlər doktoranturaya *tələbə qəbulunda* əks olunur.[38]

5.3. "Fəlsəfə doktoru" və "Elmlər doktoru" elmi dərəcələri üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri doktoranturada yüksəkixtisaslı elmi ~~və elmi-pedaqoji~~ kadrların məqsədli hazırlığına da şamil edilir.

5.4. Doktoranturada yüksəkixtisaslı elmi ~~və elmi-pedaqoji~~ kadrların məqsədli hazırlığı prosesində təhsil alan şəxslərin əyani təhsildən qiyabi təhsilə və ya əksinə keçirilməsi yalnız onları göndərən *ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatın, habelə digər təşkilatların* razılığı əsasında aparıla bilər.[39]

## *5-1. Adyunkturada yüksəkixtisaslı elmi kadrların hazırlığı*[40]

*5-1.1. Adyunkturada yüksəkixtisaslı elmi kadrların hazırlığı üzrə ali hərbi təhsil müəssisələrinin illik qəbul planları onların tabe olduqları müvafiq dövlət orqanlarının sifarişləri əsasında bu Qaydaların tələblərinə uyğun olaraq təsdiq edilir.*

*5-1.2. Bu Qaydaların doktoranturaya qəbula, habelə doktoranturada təhsilin formaları və müddətlərinə aid tələbləri adyunkturaya da şamil edilir.*

*5-1.3. Adyunkturaya ali təhsil müəssisələrinin magistratura səviyyəsini bitirən və ali hərbi təhsil müəssisələrinin nizamnamələrində nəzərdə tutulan hərbi qulluqçular, bu təhsil müəssisələrində çalışan professor-müəllim heyətindən olan şəxslər, habelə milli təhlükəsizlik və hərbi sahələr üzrə dövlət orqanlarında (qurumlarında) çalışan mülki şəxslər bu Qaydaların tələbləri nəzərə alınmaqla qəbul olunurlar. Milli təhlükəsizlik və hərbi sahələr üzrə dövlət orqanlarında (qurumlarında) çalışan mülki şəxslər adyunkturaya qəbul üzrə müsabiqəyə çalışdıqları dövlət orqanlarının (qurumlarının) göndərişləri əsasında buraxılırlar.*

*5-1.4. Adyunkturaya qəbul "Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsinə aid olan ixtisaslar üzrə aparılır.*

*5-1.5. Adyunkturada təhsil alan zabitlərin və mülki şəxslərin təhsil xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.*

*5-1.6. "Fəlsəfə doktoru" və "Elmlər doktoru" elmi dərəcələri üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri adyunkturada yüksəkixtisaslı elmi kadrların hazırlığına da şamil edilir.*

*5-1.7. Adyunkturada yüksəkixtisaslı elmi kadrların hazırlığı prosesində təhsil alan şəxslərin əyani təhsildən qiyabi təhsilə və ya əksinə keçirilməsi bu Qaydalara uyğun olaraq onları göndərən dövlət orqanının razılığı əsasında aparıla bilər.*

## 6. DİSSERTANTLIQ YOLU İLƏ YÜKSƏKİXTİSASLI ELMİ ~~VƏ ELMİ-PEDAQOJİ~~ KADRLARIN HAZIRLANMASI[41]

6.1. Dissertantlıq yolu ilə yüksəkixtisaslı elmi ~~və elmi-pedaqoji~~ kadrların hazırlanması ali təhsil müəssisələrində, *elmi müəssisə və* ~~*təşkilatlarda*~~ ~~digər~~ təşkilatlarda çalışan mütəxəssislərin istehsalatdan ayrılmamaqla, elmi dərəcənin alınması üçün təhkim olunmaqla, dissertasiya işinin yerinə yetirilməsini təmin edir.[42]

*6.2. Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis), müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər. "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər.*[43]

6.3. Dissertantlıq yolu ilə təhsil müddətini başa vuran şəxslər eyni ixtisas üzrə təkrar dissertant olmaq hüququna malik deyillər.

6.4. Doktoranturada tam təhsil müddətini başa vurmuş şəxslər eyni ixtisas üzrə dissertantlıq yolu ilə təhsil almaq hüququna malik deyillər.

6.5. Dissertant kimi təhkim olunmaq istəyən şəxslər~~, bir qayda olaraq,~~ *azı iki il elmi və ya elmi-pedaqoji* iş stajına malik olmalıdırlar.[44]

6.6. Dissertantlıq yolu ilə təhsil almaq üçün aşağıdakı sənədlər təqdim edilir:

ərizə (dissertantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);

kadrların şəxsi-qeydiyyat vərəqi;

tərcümeyi-hal;

2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);

iş yerindən xasiyyətnamə;

əmək kitabçasından çıxarış;

çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);

ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərinin tanınması haqqında şəhadətnamə);

"Elmlər doktoru" elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;

çap olunmuş elmi əsərlərin siyahısı (elmlər doktoru hazırlığı üzrə);

şəxsiyyəti təsdiq edən sənədin surəti.

*6.6-1. Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) bu Qaydaların 3.10-1-ci bəndində göstərilən qaydada keçirilən qəbul imtahanı verirlər.*[45]

6.7. Ali təhsil müəssisəsinin, *elmi müəssisə və təşkilatın* elmi şurası müvafiq şöbə, bölmə, kafedra və ya laboratoriyanın təqdimatı *və "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq istəyənlər üçün xarici dil fənni üzrə imtahandan*

*aldıqları qiymət* əsasında iddiaçının dissertant təhkim olunması, ~~onun dissertasiya mövzusu,~~ fərdi iş planı ~~və elmi rəhbəri (məsləhətçisi)~~ haqqında qərar qəbul edir. Elmi şuranın qərarı əsasında ali təhsil müəssisəsi *, elmi müəssisə və təşkilatın* rəhbəri iddiaçının təhkim olunması haqqında əmr verir.[46]

*6.7-1. Dissertasiyaların mövzularının təsdiq edilməsi və elmi rəhbərlərin təyin edilməsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.*[47]

6.8. "Fəlsəfə doktoru" və "Elmlər doktoru" elmi dərəcəsi üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri dissertantlıq yolu ilə təhsil alan şəxslərə (doktorantlara) də şamil edilir.

*6.9. "Fəlsəfə doktoru" elmi dərəcəsi üzrə dissertantlıq yolu ilə təhsil alan şəxslər müəyyən olunmuş qaydada ixtisas fənnindən və xarici dildən, həmçinin ixtisas uyğunluğu nəzərə alınmaqla, digər fəndən də fəlsəfə doktoru imtahanları verirlər.*[48]

6.10. Dissertantlıq yolu ilə təhsil alan hər bir şəxsin elmi rəhbərlərinə və *elmi* məsləhətçilərinə qanunvericiliklə müəyyən edilmiş qaydada əməkhaqqı ödənilir.[49]

6.11. Dissertasiya işini tamamlamaq məqsədi ilə fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə dissertant təhkim olunmuş şəxslərə elmi şuranın qərarına əsasən iş yerindən qanunvericilikdə müəyyən edilmiş müddətə yaradıcılıq məzuniyyəti verilir.

## 7. ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN DOKTORANTURADA VƏ DİSSERTANTLIQ YOLU İLƏ TƏHSİL ALMAQ HÜQUQU

*7.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 22.12-ci maddəsinə əsasən, doktoranturaya əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi təhsil qrantı proqramına, Azərbaycan Respublikasının "Elm haqqında" və "Təhsil haqqında" qanunlarına uyğun olaraq, habelə ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatla əcnəbi və ya vətəndaşlığı olmayan şəxs arasında bağlanılan müqavilə əsasında həyata keçirilir.*[50]

7.2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsili ödənişli əsaslarla aparılır. İllik təhsil haqqı təhsilin xüsusiyyətlərinə uyğun olaraq ali təhsil müəssisələrinin*, elmi müəssisə və təşkilatların* tabe olduqları qurumlar tərəfindən müəyyən edilir. Müstəsna hallarda ali təhsil müəssisələri*, elmi müəssisə və təşkilatlar* tabe olduqları qurumların razılığı əsasında ödənişsiz qəbul həyata keçirə bilərlər.[51]

7.3. Xarici dövlətlərdə təhsil almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün ali təhsil haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti və diplomun tanınması haqqında şəhadətnamə təqdim edilməlidir.

7.4. *Dissertasiyanı Azərbaycan dilində yazan və müdafiə edən əcnəbilər* və vətəndaşlığı olmayan şəxslər fəlsəfə doktoru üzrə doktoranturada və dissertantlıq yolu ilə təhsil müddətində "Azərbaycan dili" fənnindən əlavə doktorluq imtahanı verirlər.[52]

7.5. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ali təhsil müəssisələrində*, elmi müəssisə və təşkilatlarda* doktoranturaya qəbulu və dissertant təhkim olunması, eyni zamanda təhsili bu Qaydalara və qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 24 oktyabr 2013-cü il tarixli **310** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 27 oktyabr 2013-cü il, 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1228**)
2. 14 yanvar 2014-cü il tarixli **6** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 21 yanvar 2013-cü il, 16; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 1, maddə 56**)
3. 28 aprel 2017-ci il tarixli **183** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 666)**
4. 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 noyabr 2018-ci il, 256 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2431** )
5. 23 fevral 2019-cu il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 fevral 2019-cu il, 46, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 357)**
6. 13 noyabr 2019-cu il tarixli **443** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 noyabr 2019-cu il, 252, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1863)**
7. 14 yanvar 2020-ci il tarixli **9** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 yanvar 2020-ci il, 10, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 67)**
8. 22 fevral 2021-ci il tarixli **40** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 fevral 2021-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2, maddə 205)**
9. 16 mart 2021-ci il tarixli **67** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 mart 2021-ci il, 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 286**)
10. 5 iyun 2021-ci il tarixli **159** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 iyun 2021-ci il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, IV kitab, maddə 665)**
11. 21 dekabr 2022-ci il tarixli **448** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 23 dekabr 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1552** )

12. 12 yanvar 2023-cü il tarixli **6** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 12 yanvar 2023-cü il, "Xalq" qəzeti, 13 yanvar 2023-cü il, 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 127**)

13. 7 mart 2023-cü il tarixli **74** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı 10 mart 2023-cü il, "Xalq" qəzeti, 11 mart 2023-cü il, 54** )

14. 14 aprel 2023-cü il tarixli **118** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 19 aprel 2023-cü il, "Xalq" qəzeti, 20 aprel 2023-cü il, 82**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 aprel 2017-ci il tarixli **183** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 666**) ilə "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.1-ci bəndinə "**hazırlanmışdır və**" sözlərindən sonra **"Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq**" sözləri əlavə edilmişdir.

[2] 28 aprel 2017-ci il tarixli **183** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 666**) ilə "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.2-ci bəndindən "**və elmi-pedaqoji**" sözləri çıxarılmışdır.

12 yanvar 2023-cü il tarixli **6** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 12 yanvar 2023-cü il, "Xalq" qəzeti, 13 yanvar 2023-cü il, 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 127**) ilə "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.2-ci bəndində "(**hərbi təhsil müəssisələrində - adyunktura) yolu ilə**" sözləri "**yolu ilə və ya hərbi təhsil m üəssisələrinə münasibətdə adyunkturada**" sözləri ilə əvəz edilmişdir.

[3] 28 aprel 2017-ci il tarixli **183** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 666**) ilə "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.5-ci bəndində "**və elmi təşkilatlar elmi və elmi-pedaqoji**" sözləri "**, elmi müəssisə və təşkilatlar elmi**" sözləri ilə əvəz edilmişdir.

[4] 24 oktyabr 2013-cü il tarixli **310** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 27 oktyabr 2013-cü il, 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1228**) ilə "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.6-cı bəndinə ikinci abzas əlavə edilmişdir.

22 fevral 2021-ci il tarixli **40** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 fevral 2021-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2, maddə 205**) ilə "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.6-cı bəndinin ikinci abzasına yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

